# KONSTİTUSİYA VƏ SUVERENLİK HAQQINDA FİKİRLƏR

Bizim konstitusiyamız xalqın konstitusiyasıdır. Hər bir vətəndaşın konstitusiyasıdır. Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir.

***

Konstitusiya Məhkəməsinin simasında milli dövlətçiliyimizi, insan və vətəndaş hüquq və azadlıqlarını müdafiə edən mötəbər təsisata malikik.

***

Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir.

***

Hər bir şəxs Konstitusiyaya və qanunlara dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir. Torpağımızı, vətənimizi, müstəqil Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü qorumaq ən şərəfli vəzifədir və bu vəzifəni həyata keçirmək hər bir Azərbaycan vətəndaşının borcudur.

**Heydər Əliyev,**
**Ümummilli Lider**

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur... Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

***

Universal dəyərlərə əsaslanan Azərbaycan Respublikasının Konstitusiyası bu gün də böyük hüquqi, siyasi və ideoloji potensiala malikdir və Azərbaycan xalqının firavanlığına xidmət edir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Konstitusiyamızın bəyan etdiyi prinsiplərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümünü qeyd etdiyimiz zamanda geriyə baxarkən keçdiyimiz inkişaf yolunun, Ulu Öndərimiz Heydər Əliyevin qurduğu və Prezident İlham Əliyevin

qüdrətli bir dövlət səviyyəsinə yüksəltdiyi bugünkü Azərbaycanın əzəmətini daha aydın görürük. "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamında da qeyd olunduğu kimi, Ulu Öndərin qurduğu dövlət indi xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

**Samir Nuriyev,**
**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri**

Konstitusiyanın qəbulundan sonra ötən illərin mənzərəsi təsdiq edir ki, Ulu Öndər Heydər Əliyevin başladığı, Prezident cənab İlham Əliyevin davam etdirdiyi siyasi kurs Konstitusiyamızda yer alan demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətini inkişaf etdirmək xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi mənəvi dəyərləri ehtiva edir.

**Sona Salmanova,**
**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsinin sədr müavini**

Azərbaycan Konstitusiyasının qəbul edilməsində ulu öndər Heydər Əliyevin rolu, suverenliyin qorunması və möhkəmləndirilməsi istiqamətində Prezident İlham Əliyevin fəaliyyəti müasir Azərbaycan dövlətçiliyinin təməlində duran əsas faktorlardır. Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən Konstitusiya hüquqi dövlət quruculuğunun əsasını qoyduğu kimi, İlham Əliyevin qətiyyətli siyasəti də Azərbaycanın suverenliyini qoruyaraq ərazi bütövlüyünün bərpasını təmin etdi.

**Azər Kərimli,**
**Milli Məclisin deputatı**

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

**Şahin Seyidzadə,**
**Milli Məclisin deputatı**

Azərbaycan Prezidenti İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci il respublikamızda "Konstitusiya və Suverenlik İli" elan olunub. Milli dövlətçilik dəyərlərimizə, siyasi tariximizə ali ehtiramın təcəssümü olan bu qərar siyasi irsimizin, müstəqillik salnaməmizin, suverenlik mübarizəmizin, torpaqlarımızın azad edilməsi nəticəsində konstitusion hüquqlarımızın tam bərpasının dərindən öyrənilməsi və təbliği, bu istiqamətlərdə yeni siyasi-elmi araşdırmaların

aparılması, yeni inkişaf mərhələsində qarşımızda dayanan ideoloji vəzifələrin müəyyən edilməsi baxımından böyük əhəmiyyətə malikdir.

**Ziyafət Əsgərov,**
**professor**

Konstitusiya və suverenlik anlayışları hər bir dövlətin mövcudluğunun əsas sütunlarından biridir. Konstitusiya dövlətin hüquqi, siyasi və sosial əsaslarını müəyyənləşdirən, vətəndaş hüquqlarını qoruyan və dövlət hakimiyyətinin legitimliyini təmin edən hüquqi aktdır. O, dövlətin sabit inkişafını və beynəlxalq arenada mövqeyinin möhkəmlənməsini təmin edən fundamental sənəddir.

Beynəlxalq hüquqa görə, dövlətin əsas atributlarından biri suverenlikdir. Suverenlik dövlətin daxili idarəçiliyini, qanunlarını, iqtisadiyyatını, mədəniyyətini qorumağı və xarici siyasətini sərbəst müəyyən etmək imkanlarını ifadə edir. Suveren dövlət öz qanunlarını müstəqil qəbul edir, xarici siyasətini heç bir kənar təsir olmadan müəyyən edir, iqtisadi, mədəni və sosial inkişafını müstəqil planlaşdırır. Suverenliyin iki əsas aspekti var: daxili və xarici suverenlik. Daxili suverenlik dövlətin öz ərazisində qanunları tətbiq etməsi və idarəçilik funksiyalarını müstəqil yerinə yetirməsidir. Xarici suverenlik dövlətin beynəlxalq münasibətlərdə müstəqil qərar qəbul etməsi və öz maraqlarını qorumasıdır. Bu iki anlayışın vəhdəti ölkənin hüquqi və siyasi sisteminin bünövrəsini təmin edir.

Müasir dünyadakı qloballaşma, siyasi-iqtisadi inteqrasiya prosesləri suverenlik anlayışını müəyyən qədər dəyişsə də, Konstitusiya hər bir dövlətin müstəqilliyini qoruyan əsas hüquqi sənəd olaraq qalır. Konstitusiya suverenliyin əsas hüquqi zəmanətidir.

**Niyaməddin Əliyev,**
**Naxçıvan Muxtar Respublikası**
**Ədliyyə Nazirliyinin əməkdaşı**

Konstitusiyanın fəlsəfi mahiyyətindən belə məlum olur ki, o, hər mənada - əqidə, vicdan, hərəkət, düşüncə azadlığının leğitimləşməsidir. Söhbət hər hansı Konstitusiya maddələrinin hərfi mənasından deyil, onun insan həyatındakı inikasından gedir. Alman filosofu Kant deyirdi ki, "İnsan necə də zəifdir, çünki qanuna tabedir, amma insan həm də çox ucadır, çünki o qanunu özü yazır". Məntiqlə, əgər qanun insanın öz yazdığına tabe olmaqdırsa, bu qanunu nə qədər yüksək mənəviyyatlı, azad düşüncəli, təmiz əqidəli biri yazarsa, yaxud yazılmağına nəzarət edərsə, bir o qədər insanlar uca və dəyərli qanunlara baş əymiş olacaqlar. Deməli, hər Konstitusiya – qanun-insan qarşılığının, tandeminin inikasıdır və bunu özündə əks etdirməlidir.

**Könül Bünyadzadə,**
**AMEA-nın müxbir üzvü**